# Şirinli-acılı xatirələr

Onunla tanışlığımızın tarixi elə də çox deyil. Vur-tut 2-3 il ola, ya olmaya. Sosial şəbəkədə tanış olmuşuq. Sonralar mütəmadi də olmasa, ara-sıra nəşriyyatda - ya 2-ci mərtəbədə kompüter otağında, ya da dəhlizdə görüşmüşük. Xala-xətirin qalmasınla yox, səmimi, mehriban görüşmüşük, təbəssümlə, xoş ovqatla bir-birimizin əlini sıxıb (korona qadağalarına baxmayaraq) hal-əhval tutmuşuq. Bilirsiniz kimi deyirəm? "Bütöv Azərbaycan" qəzetinin əməkdaşı, yazıçı-jurnalist Hüseyn Məmmədovu. O Hüseyn Məmmədovu ki, keçən ilin sonunda məni saz qonaqlağına dəvət etmişdi. Mən də ondan qonaqlığın vaxtını və yerini soruşub - məmnuniyyətlə gələrəm, - demişdim. Başqa qonaqlıqlarda menyuda növ-növ yeməklər olduğu halda, burda bircə qida vardı. Bu qidanın adı söz idi. O söz ki, Tanrı insanı yaradanda onu da yaratdı ki, insanlar bir-birini sözlə başa düşüb anlasınlar.

Söz insanı mənəvi cəhətdən saflaşdırır, kamilləşdirir, ruh aləmini təzələyir, insanda ülvi fikirlər oyadır, xoş, məhrəmanə duyğular, hisslər yaradır. Və bu duyğular, hisslər İlahi bir nemətdir.

Təbiətdə eşitdiyi cürbəcür səslər qarşısında heyrətdə qalan və heyranlıqla vəcdə gələn insanlar bunu sözlə ifadə ediblər. Sözlə insanlar saf, təmiz və səmimi olublar. Od saçan, bir anda yüzlərlə, minlərlə insanı məhv edən silahlar sözün dəyərilə susdurulub. Hüseyn Məmmədov da söz adamı olaraq uzun illərdir ki, sözlə yoldaşlıq edir, onunla nəfəs alır. İstsedadlı və məhsuldar yazıçı-jurnalist olan Hüseyn Məmmədovun iki kitabı qarşımdadır. Kitablar söz qonaqlığında əldə etdiyim qazancımdır.

Birinci kitab "Sazın-sözün sehrində" adlanır. 376 səhifəlik nəfis tərtibatı kitab "Elm və Zəka" nəşriyyatında buraxılıb. "Sazın-sözün vəhdəti"ndəki yazılar müəllifin müxtəlif illərdə, müxtəlif mətbu orqanlarda dərc olunmuş məqalə və hekayələri toplanmışdır. Burada müəllifin tələbə yoldaşlarının, tanıyıb ünsiyyət bağladığı müxtəlif peşə və sənət sahiblərinin keçdiyi həyat yolundan bəhs edən yazılar həvəs və maraqla oxunur.

Kitabın 3-cü səhifəsində Hüseyn Məmmədov haqqında jurnalist, yazıçı və şair dostlarının səmimi fikirləri toplanmışdır. Bu fikirlər içində diqqətimi ən çox cəlb edən yazıçının ucqar dağ kəndində ədəbiyyat müəllimi olan Məhərrəm Bağırovun sözləri oldu: "Mən hələ 43 il əvvəl demişəm, Hüseyndən yaxşı ədəbiyyatçı olacaq".

Məhərrəm müəllim bu gün fəxr edib, qürur duyur ki, fikirlərində zərrə qədər də olsa yanılmayıb. Hüseyn Məmmədov yaxşı ədəbiyyatçı, yazıçı-jurnalist və gözəl, səmimi dost, yoldaş olmağı bacaran bir insandır.

Kitaba ön söz yazan şair, Prezident mükafatçısı Hikmət Məlikzadə və yazıçı, Prezident mükafatçısı Sabir Hüseynov Hüseyn Məmmədovun bu kitabını onun həyat salnaməsi kimi dəyərləndirirlər. Bu doğrudan da belədir. Hər bir insan yaşadığı dövrdə sevinclə, kədərlə qarşılaşır. Bir ömür nə yaşadığı sevinci, nə də kədəri unuda bilir. İllər keçəndən sonra xatirələri qabağına töküb saf-çürük edir, hansının həyatında daha çox iz buraxdığını müəyyənləşdirir. Çox təəssüf ki, bəzən insan gəncliyində buraxdığı səhvi bir ömür düzəldə bilmir. Və bu ağrını çəkə-çəkə dünyadan köçür.

"Xatirələrin izi ilə" povestində bu ağrı əsərin sonunda daha qabarıq görünür, səhv eləyəni yaman qınayırıq. "Niyə vaxtında, vədəsində bu işə bir əncam çəkmirdin?" - deyə iradımızı, narazılığımızı bildiririk.

Dünya ədəbiyyatında elə bir qələm adamı yoxdur ki, o, bir sətir də, bir misra da olsa sevgiyə, məhəbbətə həsr eləməsin. Məhəbbət, sevgi insanlıqda ən uca, ən ali hissdir. Bu hissi yaşamayan insan bəlkə də yer üzərində yoxdur. Çünki insan sevgiylə, eşqlə formalaşır, kamilləşir və həyata, təbiətə, insanlara münasibəti yaxşılığa doğru dəyişir, üzündən təbəssümü, dilindən xoş sözü əskik olmur.

Vüqar orta məktəbdə sinif yoldaşı Pərvanəyə aşiq olur. Onu dəlicəsinə sevir, amma bu sevgisini birbaşa Pərvanəyə deyə bilmir. Çıxış yolunu məktub yazıb kitabın içində verməkdə görür. Pərvanə məktubu oxuyub razı olduğunu bildirir. Amma bundan sonra məktub yazmamağı məsləhət görür. Çünki məktəbdə, kənddə dilə-dişə düşməkdən qorxur. Bu şəxsiyyət ləyaqətinin ucalığıdır. İnsanın şəxsiyyəti keçdiyi həyat yolunun təsiri altında formalaşır. Və bir də şəxsiyyət insani keyfiyyətlərlə zənginləşdikcə də şərəfli olur.

Hüseyn Məmmədovun "Xatirələrin izi ilə" - povestinin mövzusu çox da uzaq olmayan dünənimizdən götürülüb. Bədii mətnin vəzifəsi ideya verməkdir. Buna görə də əsərin dil və təsvir imkanları geniş rol oynayır. Elə bu baxımdan da əsərdəki surətlər yaşadıqları problemlərdən qurtarmağın yollarını arayıb tapan sadə insanlardır. Bu insanlar təmiz və ürəklərincə olan bir həyatı yaşamaq istəyirlər.

Vüqarın ədəbiyyat müəllimi olan Məhərrəm müəllim istəyir ki, sevimli şagirdi Vüqar dünyalar qədər sevdiyi Pərvanəyə qovuşsun, gələcəkdə onu layiqincə əvəz eləyəcək ədəbiyyatçı olsun. Amma Vüqar birinci il ali məktəbə daxil ola bilmir, texnikuma daxil olur. Lakin texnikumda oxumaq ürəyincə olmur. Texnikumu atıb hərbi xidmətə yola düşür. Orda eşidir ki, dünyalar qədər sevdiyi Pərvanəsini kəndçiləri götürüb qaçıb. Bu acı və üzücü xəbərdən Vüqar özünə gələ bilmir. Atası Mikayıl kişini, anası Nazdı xanımı qınayır. Vaxtında, vədəsində başına bir yaylıq bağlayıb ad eləmədiklərinə görə.

Valideynlərin asta gəlmişliyi, laqeydliyi nəinki Vüqarın, həm də Pərvanənin həyatını dəyişir. Burda təkcə valideynlərin günahı yox, eyni zamanda gənclərin də günahı var. Əvvəla onlar məhəbbətlərini, sevgilərini İlahi bir yüksəkliyə qaldıra bilmirlər. Sadəcə bir-birini sevdiklərini dilə gətirirlər, gizli görüşlər.

Hüseyn Məmmədovun qəhrəmanı böyüyün, kiçiyin yerini biləndi, dürüstdü, halalı, haramı bir-birindən ayırandı. Arzusu, məqsədi yolunda mübarizə aparmağı bacarandır. Hərbi xidmətdən qayıdıb gələndən sonra boş dayanmır. Əmisi milis kapitanı Cavanşirin təkidi və köməkliyilə milisə düzəlir, amma bu sahədəki qanunsuzluqları qəbul edə bilməyib işdən çıxır. Vüqar həqiqəti, ədaləti, doğrunu, dürüstü sevir, onun uğrunda çarpışır, mübarizə aparır. Və sonda da məqsədinə nail olur.

Vüqar milisdən çıxıb fabrikdə işə düzəlir. Məqsədinə, məramına çatmaq üçün. İşləyə-işləyə sənədlərini ali məktəbə verir. Amma məqsədi yolunda ona iki dəfə alman dili mane olur. Üçüncü idi. Allah kərimdi deyiblər. Sınaqda Vüqar alman dili imtahanından qiymət alıb ən böyük arzusuna qovuşur. Məhərrəm müəllimin bu xəbərdən çox sevinir. Quş qanadlı illər tez keçir və Vüqar ali məktəbi bitirib məktəbdə müəllim işləyir.

Hüseyn Məmmədov Mikayıl kişini oğlu Vüqarı və ailəsini sevən, onların yolunda gecə-gündüz çalışmaqdan yorulmayan, zəhmətkeş bir ailə başçısı kimi təsvir edir. Hadisələrin sonrakı inkişafı Mikayıl kişinin laqeydliyini, astagəlliyini, bu günün işini sabaha qoymağını ortaya çıxarır.

Povestdə baş verən hadisələr uydurma yox, həyat həqiqətidir. Obrazlar bu günün adamlarıdırlar. Aradan uzun illər keçəndən sonra Vüqar sinif yoldaşı Babanın qızının toyunda Pərvanə və sinif yoldaşları bir araya gəlir. Bu görüş onu uzaq illərə aparır, xatirələr çözələnir.

İnanıram ki, dəyərli dostum Hüseyn Məmmədovun bu kitabları ona yeni-yeni uğurlar gətirəcək.



*Məhərrəm* Şəmkirli
*AYB və AJB-nin üzvü*